# Qurban Bayramınız Mübarək

№ 35 (978) 31 avqust - 5 sentyabr 2017-ci il

www.iqtisadiyyat.com

# İQTİSADİYYAT

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet   Qiyməti razılaşma yolu ilə   Qəzet 1999-cu ildən çıxır

## Minimum qiymətlə səyahət imkanı



Avqustun 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Hava Yolları" QSC-nin nəzdində yaradılan "Buta Airways" aviaşirkətinin Bakıya gətirilən ilk "Embraer 190" təyyarəsi ilə tanış olub.

Azərbaycanda turizmin inkişaf etdirilməsi dövlətin əsas prioritet sahələrindən biridir. Prezident İlham Əliyevin tapşırığı ilə ölkədə turizm obyektlərinin yaradılması ilə yanaşı, nəqliyyat infrastrukturunun müasir səviyyədə yenidən qurulması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. "Buta Airways" aviaşirkətinin lou-kosterinin yaradılması da dövlətimizin başçısının Nazirlər Kabinetinin iclasında aviabiletlərin qiymətinin aşağı salınması ilə bağlı verdiyi müvafiq tapşırığına əsasən görülən işlərdəndir.

"Azərbaycan Hava Yolları" QSC-nin prezidenti Cahangir Əsgərov "Buta Airways" aviaşirkətinin yeni "Embraer 190" təyyarəsi barədə dövlətimizin başçısına məlumat verdi. Bildirildi ki, ekonom sinif modifikasiyalı bu təyyarə 106 sərnişin tutumuna malikdir. "Buta Airways" ən çox tələb olunan istiqamətlərə uçuşlar yerinə yetirəcək. Sentyabrın 1-dən etibarən Bakıdan Moskva, Kiyev, Antalya, Kazan, Mineralnıye Vodı, Tbilisi və Tehrana, oktyabrın 29-dan isə tətbiq ediləcək qış uçuş cədvəlinin başlamasıyla Bakıdan İstanbula və Sankt-Peterburqa, eləcə də Gəncədən Moskvaya uçuşlar olacaq. Bütün istiqamətlər üzrə minimal tarif bir tərəfə 29 avro təşkil edir. "Buta Airways" tipik lou-koster sxemi üzrə fəaliyyət göstərir və baqajın daşınması, təyyarədə isti yeməklər, yer seçimi və digər xidmətlər əlavə ödəniş müqabilində təklif ediləcək.

Yaxın günlərdə şirkətin daha bir yeni "Embraer 190" təyyarəsinin Bakıya gətirilməsi nəzərdə tutulur.

Ümumilikdə isə, aviaşirkətin hava gəmiləri parkındakı "Embraer 190" təyyarələrinin sayı 8-ə çatdırılacaq. Bu layihənin icra edilməsi ölkə vətəndaşlarının daha ucuz qiymətə dünyanın müxtəlif şəhərlərinə səyahət etməsinə imkan yaratmaqla yanaşı, Azərbaycana turist axınının artmasına da əhəmiyyətli dərəcədə təsir göstərəcək.

## Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik

**Hörmətli həmvətənlər!**

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı mənəvi kamillik və vəhdət rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Öz demokratizmi, humanizmi və bəşəri idealları ilə dünya sivilizasiyasının möhtəşəm səhifəsini təşkil edən İslam dini xalqımızın dünyagörüşünün formalaşmasında və milli-mədəni inkişafında müstəsna rol oynamış, mütərəqqi islami dəyərlər və ənənələr Azərbaycanda həmişə uca tutulmuşdur.

İslamın bir din kimi tamamlanmasını və mənəvi-əxlaqi qurtuluş yolu olaraq bəşəriyyətə göndərilməsini özündə təcəssüm etdirən mübarək Qurban bayramı insanları mərhəmətə, həmrəyliyə və qardaşlığa dəvət edən bir bayramdır. Bu əziz gündə müsəlmanlar Allah yolunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirir, uca Tanrıya yaxınlığın fərəhini yaşamaq fürsəti əldə edirlər.

Xalqımız öz milli-mənəvi dəyərlərinə və ənənələrinə həmişə ehtiramla yanaşır. Bütün dini mərasimlər, o cümlədən Qurban bayramı hər il böyük təntənə ilə qeyd edilir. Ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, geniş xeyriyyəçilik işləri görülür, dövlətimizin tərəqqisi və əmin-amanlığı üçün dualar edilir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur.

Əminəm ki, builki Qurban bayramı da cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin, şəfqət və mərhəmət duyğularının təntənəsinə çevriləcəkdir.

**Əziz bacı və qardaşlarım!**

**Bu mübarək gündə bir daha hamınıza ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.**

**Qurban bayramınız mübarək olsun!**

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**




PAŞA Bank

Qurban bayramınızı təbrik edir, xeyirlərə səbəb olmasını diləyir

# Sərinləşdirici içkilər zavodu tikilir



Ağstafada daha bir istehsal sahəsinin, "ATİLO" MMC sərinləşdirici içkilər zavodunun inşasına başlanıb.

Bu layihə tamamilə müasir texnologiyalara əsaslanan istehsal sahəsidir. Bakı-Qazax avtomobil yolunun kənarında, Dağ Kəsəmən kənd ərazisində inşa olunan zavodda pivə istehsalı, sərin içkilər istehsalı, şüşə qablar istehsalı və sərin içki məhsullarının saxlanılması və qablaşdırılması kimi sahələr fəaliyyət göstərəcək.

İstehsal müəssisəsində xammal kimi regionda mövcud olan təbii resurslardan istifadə nəzərdə tutulur. İstehsal olunacaq məhsullar isə əsasən daxili bazara yönəldiləcək. İstehsalda istifadədən sonrakı qalan qalıqlar heyvandarlıqda yem kimi istifadə oluna biləcək.

Layihədə istifadə ediləcək avadanlıqlar və pivə istehsalı üçün "solot" və "xmel" Avropa ölkələrindən gətiriləcək. İstehsal müəssisəsin 2018-ci ilin may ayında istifadəyə verilməsi planlaşdırılır. Tam fəaliyyətə düşdükdən sonra isə burada 150 nəfər daimi işlə təmin olunacaq.

# Cənub bölgəsində Qafqazda ən böyük müalicəvi istirahət zonası tikiləcək

Cənub bölgəsində turizm rekreasiya zonalarının yaradılması üzrə lazımi işlərə başlanılıb.

Ölkəmizdə 1-ci turizm rekreasiya zonası Şimal bölgəsində yaradılıb. Növbəti mərhələdə rekreasiya zonası Cənub bölgəsində yaradılacaq. Artıq bununla bağlı mərkəz də seçilib.



Lənkəran Turizm İnformasiya Mərkəzinin direktoru İlqar Əzimov: "Artıq Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil olunan işçi qruplar tərəfindən yerlərə baxış keçirilib. Astara, Masallı, Lerik və Lənkəran rayonlarının müvafiq yerlərinə. Artıq sənədləşmə gedir."

İlin sonunadək tamamlanacaq bu layihənin icrası ilk növbədə bölgənin turizminin beynəlxalq səviyyədə tanıtımına xidmət edir. Məqsəd keyfiyyətli turizm xidmətlərinin göstərilməsi, nəzarət mexanizmlərinin gücləndirilməsidir. Eləcə də layihə nəhəng turizm istirahət zonalarının yaradılmasına, eyni zamanda, turizm sahəsi ilə birbaşa əlaqəli olan kənd təsərrüfatı və digər sahələrin inkişafına təkan verəcək.

Lənkəran Turizm İnformasiya Mərkəzinin direktoru İlqar Əzimov: "Necə ki, Türkiyədə, Antalyada turizm rekreasiya bölgəsi yaradılıb və artıq ora sırf turizm zonası kimi tanınır. O cümlədən də Azərbaycanın bir sıra bölgələrində belə turizm rekreasiya zonaları yaradılacaq. Sevindirici haldır ki, Cənub bölgəsi də bu seçimə düşüb."

# Unibank sahibkarlar üçün yeni kart hazırladı

Unibank biznes sahiblərinə dəstək məqsədi ilə Albalı Biznes Kartını təqdim edir.

Albalı Biznes Kartı mağazalarla distributor şirkətlər arasında ticarətin daha rahat və təhlükəsiz aparılmasına, operativliyin təmin olunmasına, dövriyyənin artırılmasına imkan yaradan, debet və kredit funksiyalarını özündə birləşdirən çox sərfəli bank kartıdır.

Albalı Biznes Kartının unikal üstünlüklərə malik olması və Unibank Business Mobile əlavəsinə qoşulmaq imkanı günün istənilən vaxtı mağaza sahibinin və distributorun əməliyyatlar aparmasını və hesablarına nəzarət etməsini mümkün edir.

Albalı Biznes Kartı həm mağaza sahibləri, həm də distributor şirkətlərinə bir çox üstünlüklər verir:

Kart sahibləri üçün üstünlüklər:

-Güzəştli (faizsiz) kredit xətti imkanı;




-Günün istənilən saatı, istənilən yerdə distributorlara ödənişlərin əlavə sənədsiz və komissiyasız köçürülməsi;

-Ödənişdən dərhal sonra mağaza sahibi və ekspeditorun məlumatlandırılması;

-Unibank Business Mobile və İnternet bank xidmətinə qoşulmaqla ödənişlərə 24/7 nəzarət etmək imkanı;

-Büdcə ödənişlərini (DSMF/Vergi/Gömrük və digər) Albalı Biznes Kartdan Unibank Business Mobile vasitəsi ilə etməyin mümkünlüyü;

-Unibank-ın istənilən filialından, cash-inindən, E-manat ödəmə terminallarından karta şəxsi vəsaitin mədaxil imkanı;

-Mağaza sahibinin ödəmələri haqqında tarixçənin Unibank Business Mobile-də avtomatik formalaşması.

Distributor şirkətləri üçün üstünlüklər:

-Nağd pulların idarə edilməsi riskindən azad olma;

-Bank tərəfindən mağazalara verilən kredit xətti hesabına dövriyyənin artırılması və xərclərin optimallaşdırılması;

- Şəffaf Hesabat;

- Hesaba pulun anında daxil olması.

Ticarət obyekti sahibi bankın istənilən filialına cəmi bir dəfə gəlməklə Albalı Biznes kartını pulsuz ala bilər.

# "AtaBank" ASC dünyanın aparıcı ödəniş sisteminə qoşuldu

Avqust ayının 28-də "Excelsior" hotelində "AtaBank" dünyanın aparıcı ödəniş sistemlərindən biri olan "UnionPay International" şirkəti ilə təntənəli şəkildə tərəfdaşlıq müqaviləsi imzalamışdır.

Tərəfdaşlıq çərçivəsində AtaBank-ın bankomat və POS-terminallarında emissiya etdiyi kartların sayına görə dünya lideri olan "UnionPay International" kartları ilə əməliyyatlar etmək mümkün olacaq.

2002-ci ilin mart ayında Çin Dövlət Şurası və "Çin Xalq Bank"ı tərəfindən təsis edilmiş "UnionPay İnternational" şirkəti emissiya etdiyi kartların sayına görə və kartlar üzrə tranzaksiyaların həcminə görə liderdir. UnionPay dünyanın 162 ölkəsində xidmət göstərir. Kartlarının ümumi sayı 5 mlrd.-dan artıqdır, bunlardan 70 milyonu Çin sərhədlərindən kənarda, dünyanın 40 ölkəsində emissiya olunub.






AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI
Gözəllik, birlik, bərabərlik dolu,
gözəl və xoşbəxt bir
Qurban Bayramı diləyirik.


Mübarək Qurban bayramı xalqımıza
bolluq və bərəkət gətirsin.
Hamınıza xeyirli
bayramlar arzulayırıq
Dəvəçi Dəyirman MMC


Biologi Təbabət
Bioloji Təbabət
xəstəliyi deyil,
xəstəni müalicə edir !
Niyə məhz Bioloji Təbabət ?
Bioloji Təbabət öz müalicə prinsipini xəstə orqanizmin biotənzimləyici imkanlarını səfərbər etməklə, süni-kimyəvi vasitələrdən istifadə etmədən xüsusi üsullar üzərində qurmuşdur.
DİAQNOSTİKA
Qaranlıq sahəli mikroskopiya
Rentgen
USM
Rəngli-doppler
Endoskopiya
EKQ (elektrokardioqrafiya)
Exo-KQ
EEQ (elektroensefaloqrafiya)
Densitometriya
KT (kompyuter tomoqramma)
Elektromioqrafiya
BRT (biorezonans terapiya)
TERAPİYA
Allerqologiya
Dermatologiya
Endokrinologiya
Kardiologiya
Nevrologiya
Qastroenterologiya
Urologiya
Andrologiya
Oftalmologiya
Vertebrologiya
LABOROTORİYA
Klinik analizlər
Biokimyəvi analizlər
Hormonların təyini
İmmunoloji analizlər
Mikrobioloji analizlər
Onkomarkerlərin təyini
PZR müayinələr
Genetik analizlər (AFGEN laboratoriya)
Göyçay: M.Muradov küç., 12 (Nizami küç., Mərkəzi Xəstəxana yolu)
Tel: (+994 20) 274 70 80/90 (+994 55/70) 259 70 90
Sumqayıt: H.Əliyev prospekti, 10-cu məh. Kimya-Texnologiya kollecinin qarşısı
Tel.: (+994 12) 409 10 27; (+994 18) 655 03 23/53; (+994 50) 340 03 23
Ünvan: Bakı şəhəri, 3-cü mkr., Pişəvari küç., 110 (Cavadxan küç 24), Memar Əcəmi metrosunun yaxınlığında
/bioloji.tababat
www.btk.az
(012)(050) (055)(070) 430 89 89


Qurban Bayramı bərəkəti,
bolluğu ilə gəlsin, bütün insanlıq
üçün xeyirlərə vəsilə olsun.
AKU-TGT
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
XOŞ GƏLMİSİNİZ
WELCOME

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi" layihəsi çərçivəsində çap olunub.

# Regionlarda sənaye məhəllələrinin yaradılması yüksək gəlir və əlavə dəyər imkanları deməkdir



***Regionlarda sənaye məhəllələri yaratmaq potensialı mövcuddur***

Bütün dünyada olduğu kimi, son vaxtlar Azərbaycanda da sənayeləşmə prosesi böyük vüsət almışdır. Bu proses investisiya qoyuluşlarını və iqtisadi inkişafı stimullaşdırmaqla bərabər, əhalinin yeni iş yerləri ilə təmin edilməsinə də şərait yaradır. Sənayenin inkişafı bütövlükdə iqtisadiyyatın inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Hazırda qeyri-neft sektorunun strukturunda sənaye xüsusi çəkiyə malikdir.

Azərbaycanın bir çox bölgələrində sənaye məhəllələri yaratmaq potensialı mövcuddur. Bir çox şəhərlərdə artıq sənaye müəssisələri var. Məhəllələr yaradılarkən sənaye istehsalı, infrastruktur və bazar imkanları təhlil olunur, müvafiq qərarlar verilir. Bu məhəllələrin yaradılması həm də rayonların özlərinin iqtisadiyyatlarının inkişafına müsbət təsir göstərir. Sənaye park və məhəllələrində yaradılmış infrastruktur və güzəşt-dəstək sxemləri dünya praktikasına tam uyğundur. Bundan əlavə, ölkə prezidentinin təşəbbüsü ilə qəbul edilmiş qanun və qərarlar sənaye zonalarına investorların gəlməsi üçün əlavə stimullar yaradır.

Hazırda ölkəmizdə sənaye zonalarının yaradılması, sahibkarlıq mühitinin inkişaf etdirilməsi, kiçik və orta sahibkarlıq subyektləri üçün əlverişli investisiya mühitinin yaradılması, qeyri-neft sektorunun inkişafı və iqtisadiyyatın modernləşdirilməsi qarşıda duran prioritet vəzifələrdəndir.

Yeni sənaye zonalarının yaradılması, ən müasir texnologiyaların bu zonalara cəlb olunması, xarici investorlar üçün əlavə vergi və gömrük güzəştlərinin tətbiq olunması Azərbaycanın yeni sənaye siyasətinin tərkib hissəsdir. İxrac siyasətinin işlənib hazırlanması, ixracyönümlü sahələrə və sahibkarlara xüsusi dövlət dəstəyinin hazırlanması ilə bağlı ölkə prezidentinin verdiyi tapşırıqlar bu sahədə də mühüm nəticələrə gətirib çıxaracaqdır.

Ölkədə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikası Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli 288 nömrəli Fərmanı ilə müəyyən edilmişdir. Sənaye məhəllələrinin yaradılmasında məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitin təmin edilməsi və əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır.

Fərmanla müəyyən olunmuşdur ki, sənaye məhəlləsi sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün zəruri infrastruktura malik olan, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsalı və xidmət göstərilməsi üçün istifadə edilən ərazidir. Sənaye məhəllələri istehsal prosesinin təşkilində infrastruktur xərclərinin azaldılması, kooperasiya əlaqələrinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi və s. məsələlərin həlli baxımından böyük əhəmiyyət kəsb edir.

Sənaye zonası üçün nəzərdə tutulan dövlət mülkiyyətində olan torpaq sahəsi idarəedici təşkilatın daimi istifadəsinə verilir və yalnız sənaye məhəlləsinin fəaliyyəti məqsədi ilə istifadə edilir. Sənaye məhəlləsinin ərazisində torpaqlar sənaye məhəlləsinin iştirakçılarına sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə dair imzalanmış müqavilənin müddətinə uyğun olaraq icarəyə verilir.

Qeyd edək ki, sənaye zonalarının yaradılması, idarə edilməsi və burada sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələlərinin tənzimlənməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 13 may tarixli 186 nömrəli qərarı ilə "Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir.

***Azərbaycanda ilk sənaye məhəlləsi - Neftçala Sənaye Zonası***

Ölkəmizdə ilk sənaye məhəlləsi olan Neftçala Sənaye Zonası Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 fevral tarixli 1011 nömrəli Sərəncamı ilə yaradılmışdır. Hazırda Neftçala Sənaye Məhəlləsində 4 iştirakçı qeydiyyatdan keçmişdir. Təklif olunan layihələrin icrası məqsədilə 40 milyon manatdan yuxarı investisiyanın qoyulması və nəticədə 500-ə yaxın iş yerinin açılması nəzərdə tutulmuşdur.

6 rezidenti olan Neftçala Sənaye Zonasında bütün zəruri infrastruktur qurulub. Hazırda burada Azərbaycan-İran birgə avtomobil zavodu layihəsinin icrası üzrə müvafiq işlər görülür.

Avtomobil və ehtiyat hissələrinin istehsalı layihəsi ilə bağlı olaraq, "Azevrocar" MMC, "Azərbaycan İnvestisiya Şirkəti" ASC və İranın "Khodro" şirkəti arasında minik avtomobillərinin və ehtiyat hissələrinin birgə istehsalının həyata keçirilməsinə dair 2016-cı il 21 aprel tarixində Anlaşma Memorandumu imzalanmışdır. Layihənin icrası nəticəsində istehsal olunacaq "Runna", "Samand", "Soren", "SAİPA X200 (TIBA)"; "Tondar SR (Renault)", "Peugeot", "Dena" modellərində minik avtomobillərinin ölkə daxilində satılması, həmçinin ixrac olunması nəzərdə tutulur.

Ümumi sahəsi 7800 kvadratmetr olan 8 istehsal təyinatlı modullaşdırılmış blok, 1200 kvadratmetr olan inzibati bina, texniki binalar, bütün zəruri infrastruktur sahibkarların istifadəsi üçün hazırdır. Neftçala Sənaye Məhəlləsinin inzibati binası toplantı və təlimlərin keçirilməsi üçün iclas otağı, məhəllənin iştirakçılarına müxtəlif xidmətlər göstərən müəssisələrə icarəyə veriləcək müasir ofis sahələri, sərgi-satış mərkəzi, tibb məntəqəsi, poçt, yeməkxana və sənaye məhəlləsinin idarəedici təşkilatının istifadəsi üçün nəzərdə tutulan sahələrdən ibarətdir. Neftçala Sənaye Məhəlləsində sahibkarlara ümumi mühasibatlıq, hüquqi məsləhətlər, bank və sığorta, poçt və internet, logistika, istehsalat və məişət tullantılarının idarə olunması, yeməkxana, tibbi xidmətlər də göstəriləcək.

Hələ keçən il iyulun 22-də Neftçala Sənaye Məhəlləsinin inzibati binasında Məhəllənin mövcud və potensial rezidentləri ilə görüşdə sahibkarlar tərəfindən Neftçala Sənaye Məhəlləsində fəaliyyət göstərmək üçün Azərbaycan İnvestisiya Şirkətinə 8 layihə təqdim olunduğu bildirilmişdi. Bunlardan 4 layihə üzrə sahibkarlıq subyektləri rezident kimi qeydə alınmışdı.

***Hesabat ürəkaçandır***

Neftçala Rayonu İcra Hakimiyyəti başçısının 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş hesabat iclasında bildirilmişdir ki, 2017-ci ilin birinci yarısında rayonun iqtisadiyyatında istehsal olunmuş ümumi məhsulun həcmi 2016-cı ilin müvafiq dövrünə nisbətən 24,6% artmışdır. Neftçala rayon İcra Hakimiyyətinin başçısı İsmayıl Vəliyevin sözlərinə görə, Neftçalada sahibkarların təşəbbüsləri dəstəklənir müasir infrastruktur və istehsal müəssisələri yaradılır, yeni iş yerləri açılır. Dövlət başçısının Sərəncamı ilə yaradılmış Neftçala Sənaye Məhəlləsi kiçik və orta sahibkarlığın inkişafında mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, hesabat dövründə Neftçalada ümumi məhsul istehsalı 160 milyon 881,5 min manat olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 31,8 milyon manat çoxdur. Ümumi məhsulun tərkibində sənaye məhsulu 15 milyon 633,9 min manat və ya ümumi məhsulun 9,7%-i qədər, kənd təsərrüfatı 74 milyon manat və ya 46%, tikinti işlərinin həcmi 28 milyon 14,2 min manat və ya 17,4%, nəqliyyat xidməti 995 min manat və ya 0,6%, rabitə xidməti 343,1 min manat və ya 0,2%, ticarət, iaşə və digər xidmət sahələrinin həcmi 41 milyon 886,7 min manat və ya 26,1%, olmuşdur. Ümumi məhsulun həcmində qeyri-dövlət bölməsinin payı 2016-cı ilin birinci yarısına nisbətən 22,8% artaraq 80,3%-ə çatmışdır. Adambaşına 1867,4 manatlıq məhsul istehsal edilmişdir ki, bu göstərici 2016-cı ilin müvafiq dövrünə nisbətən 23,5% çoxdur.

2017-ci ilin birinci yarısında rayonda 12 yeni müəssisə yaradılmış, 621 fiziki şəxs fəaliyyətə başlamışdır. Yeni yaradılmış müəssisələr üzrə 23, fiziki şəxslər üzrə 621, mövcud müəssisə və təşkilatlarda 19, fəaliyyəti bərpa edilmiş müəssisələrdə 5 olmaqla cəmi 668 daimi yeni iş yeri açılaraq işsiz vətəndaşlar işlə təmin olunmuşdur. Ümumilikdə, rayon üzrə 3897 nəfər işlə təmin olunmuşdur.

Yeni iş yerlərinin açılması istiqamətində müvafiq olaraq əlavə tədbirlər görülür.

Hesabat dövründə rayonda fəaliyyət göstərən sənaye müəssisələrində və bu sahədə fiziki şəxslərin fəaliyyəti nəzərə alınmaqla 15 milyon 633,9 min manatlıq sənaye məhsulu istehsal olunmuş, iş və xidmətlər yerinə yetirilmişdir.

Hesabat dövründə Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti hesabına 6 sahibkara 346,5 min manat məbləğində güzəştli kredit verilmişdir. Ümumilikdə, rayon üzrə 944 mülkiyyətçi "MKT" MMC ilə 4555,5 hektar, "CTS Aqro" MMC ilə 51,8 hektar, "Neftçala kənd təsərrüfatı" MMC ilə 6503,7 hektar sahədə müqavilə bağlanmışdır.

İqtisadiyyat naziri Şahin Mustafayev bu ilin yanvar ayında nazirlikdə keçirilmiş kollegiya iclasında bildirmişdi ki, "Neftçala Sənaye Zonasında ümumi investisiya qoyuluşu 49 mln. manatdan çox olan və 600-dən çox yeni iş yerlərinin yaradılmasını təmin edəcək 15 layihənin icrası planlaşdırılır. Sənaye Zonasında 5 müəssisə - karton stəkan istehsal edən "Sun Rise Production", polietilen boru istehsal edən "Toğrul-2008", kənd təsərrüfatı təyinatlı qurğuların istehsalı müəssisəsi "Petroqeoaz", modul tipli məktəb binalarının istehsalı ilə məşğul olan "Providence Doytch Limited" və balıq yemi istehsal edən "Kəhf" şirkətləri, avtomobil istehsal edən "Azeurocar" artıq 2017-ci ilin iyul ayında fəaliyyətə başlamağı planlaşdırır".

Neftçala Rayon İcra Hakimiyyətinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş hesabat iclasında bu məsələnin hazırkı vəziyyəti haqqında danışan icra başçısı qeyd etmişdir ki, 2017-ci ilin 6 ayı ərzində Neftçala Sənaye Məhəlləsində Azərbaycan Respublikasının "Azevrocar" MMC şirkətinin İran İslam Respublikasının "İran khodro" şirkəti ilə birgə həyata keçirdiyi layihə üzrə təməli qoyulmuş avtomobil istehsalı zavodunun hal-hazırda tikinti işləri davam etdirilməkdədir.

Ümid edirik ki, Neftçala Sənaye Məhəlləsində avtomobil istehsalı zavodunun qurulması köməkçi sənaye istehsalı və xidmət sahələrinin inkişafı üçün də əlverişli imkan yaradacaq.

Bölgələrdəki bu canlanma bir daha təsdiq edir ki, bu gün müasir tələblərə cavab verən və rəqabətqabiliyyətli istehsal infrastrukturuna malik sənaye parklarının və məhəllələrinin, yeni istehsal sahələrinin yaradılması ölkəmizdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsinə və məşğulluq səviyyəsinin artırılmasına xidmət edir.

**Yeganə MƏMMƏDOVA**

# Girov götürülmüş iri müəssisə satıldı



"Azərbaycan Beynəlxalq Bankı"na kredit borcu olduğuna görə girov götürülmüş və "Aqrarkredit" tərəfindən hərraca çıxarılmış "Bakı Fındıq Emalı" zavodu (BakFEM) satılıb.

Artıq BakFEM barədə məlumat hərrac məqsədilə yaradılmış İnternet səhifəsində "satışda olan əmlaklar" bölməsindən çıxarılıb.

Müəssisəni, Beynəlxalq Bankın toksit aktivlərini idarə edən "Aqrarkredit" iyul ayında 37 milyon 744 min manata hərraca çıxarmışdı. Elana görə, açıq hərrac 15 avqust 2017-ci il tarixində keçiriləcəkdi. Lakin hərracın avqustun 21-də baş tutduğu bildirilir.

Qeyri-rəsmi məlumata görə, adı açıqlanmayan investor zavodu hərrac qiymətinə (37 milyon 744 min manata) almağa razılaşıb. Hazırda alqı-satqı müqaviləsinin imzalanması üçün danışıqlar gedir.

Satış şərtlərinə görə, hərracı udmuş şəxs alış qiymətindəki məbləği sifarişçi təşkilatın hesabına köçürməlidir.

"Bakı Fındıq Emalı" müəssisəsi ("BakFem" MMC) 1996-cı ildən fəaliyyət göstərir və Azərbaycanda fındıq emalı ilə məşğul olan ən iri müəssisələrdən biridir.

Bakı şəhəri, Bakıxanov qəsəbəsində yerləşən müəssisənin tərkibində 4 mərtəbəli ofis binası, fındıq çeşidləmə, fındıq pasta istehsalı, fındıq qovurması, qablaşdırma, anbar sahəsi və digər inzibati sahələr vardır.

"Bakfem"in mövsüm ərzində tam fındıq emalı üçün nəzərdə tutulmuş 1000 ton istehsal gücünə malik, Türkiyə və Belçikada istehsal olunmuş istehsal xətləri və avadanlıqları mövcuddur. Müasir avadanlıqlarla təchiz olunan sınaq laboratoriyası vasitəsi ilə xammal və hazır məhsulun keyfiyyətinə nəzarət həyata keçirilir.

Müəssisənin Xaçmaz, Qusar, Oğuz, Qax, Zaqatala və Balakəndə 1681 hektar torpaq sahəsi, bölgələrdə 7 fındıq emalı sexi var.

"BakFem"in direktoru işləmiş Azad Cavadov məhkəmədə bildirmişdi ki, müəssisə Beynəlxalq Bankdan ümumilikdə 60 milyon manat kredit götürüb: "Kredit istehsalın genişlənməsinə sərf olunub, Beynəlxalq Bank da bu işə nəzarət edib. Burada heç bir mənimsəmə yoxdur. Müqaviləyə əsasən, borc ödənilməzsə, bütün hallarda müəssisə bankın girovluğunda idi. Zavod sonra "Aqrar Kredit" QSC-nin nəzarətinə keçib".

Bundan əvvəl, "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin (ABB) problemli aktivlərinin idarə edilməsi ilə məşğul olan "Aqrarkredit" QSC bank olmayan kredit təşkilatı (BOKT) Banka borc müqabilində girov qoyulmuş müəssisələrdən birini - "Fireland Vineyards" əmlak kompleksini satmışdı.

"Aqrarkredit" digər girov obyektlərin satışını da davam etdirir. Bunlar Binəqədi şosesindəki "BOT" ayaqqabı fabriki, Zaqatala rayonundakı "Stimul" ticarət və xidmət müəssisəsi, Mingəçevir şəhərində "Mingəçevir İzolit"in əmlak kompleksi, Şəki rayonunda "Kainat" əmlak kompleksi və "Şəki Kərpic" əmlak kompleksi, eləcə də Tbilisinin (Gürcüstan) Samqori rayonunda "Qafqaz-Beton 2007" əmlak kompleksidir.

# Keşlə konteyner qatarı fəaliyyətə başlayıb

Yük sahiblərinin və yükgöndərənlərin nəzərinə. Poti/Batumi – Keşlə konteyner qatarı fəaliyyətə başlayıb.

20 futluq konteyner 800 dollar, 40 futluq konteyner 1000 dollar təşkil edir. Qiymətə hər şey daxildir.

Qatar həftədə 3 dəfə yola düşür. 900 km məsafəni 30 saata qət edir.

Qeyd edək ki, Azərbaycanın yaxın zamanlarda nəqliyyat sahəsində böyük tranzit ölkəsinə çevriləcəyini və ölkəmizin dəmir yolları üzrə yük daşıma xidmətlərinin müasir standartlarına cavab verməli olduğunu nəzərə alaraq, "Azərbaycan Dəmir Yolları" QSC yeni struktur vahidi olan "ADY Ekspress" MMC-ni təsis etmişdir.

"ADY Ekspress" ölkəmizdə yükdaşımaların həcminin artırılması, xüsusilə də tranzit yüklərin cəlb olunması üçün ekspeditor və irihəcimli yük sahiblərinə onlayn xidmətlər təklif edir.

"ADY Ekspress" olaraq məqsədimiz Xəzər dənizi, Qara dəniz, Avropa, İran körfəzi, Mərkəzi Asiya və Uzaq Şərq regionlarının bütün sənayə sahələri üçün geniş həcmdə dəmir yolu daşımaları həyata keçirmək və logistika sahəsində əlverişli şəraitin, şəffaf mühitin yaradılmasına nail olmaqdır. Şirkətin başlıca hədəfi dəmir yolu daşımaları sahəsində müştərilərə sifarişə əsasən hazırlanmış, iqtisadi cəhətdən səmərəli və etibarlı logistika həll variantları təqdim etməklə, tarixi İpək yolunun dirçəlişini təmin edərək, Asiya ilə Avropa arasında, eyni zamanda, Fars körfəzi ilə Rusiya və Avropa ölkələri arasında tranzit yük daşımalarının həcmini artırmaqdır.



# "PASHA Bank Georgia" "CEO Lunch Tbilisi"nin sponsoru olub

"PASHA Bank Georgia" "CEO Lunch Tbilisi"nin sponsoru olub. Caspian European Club və Caspian American Club-un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev bildirib: "PASHA Bank Georgia bu il tərəfimizdən keçiriləcək CEO Lunch Tbilisi-nin sponsoru olmaqla yanaşı, Caspian Energy Georgia-nın fəaliyyətinin yenilənməsini dəstəkləyib və növbəti dəfə CEİBC ilə hazırkı əməkdaşlığın əhəmiyyətini vurğulayıb".

O qeyd edib ki, sentyabrın 29-da keçiriləcək CEO Lunch Tbilisi-də Gürcüstanın baş naziri Georgi Kvirikaşvili və Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənovun iştirakı planlaşdırılır.

PASHA Bank Georgia-nın direktorlar şurasının sədri və baş icraçı direktoru Şahin Məmmədov tədbirin Gürcüstan ərazisində CEO Lunch və biznes-forum formatında təşkilinin əhəmiyyətini vurğulayaraq bildirib ki, bu, xarici sahibkarlarla işgüzar əlaqələrin, iqtisadi əməkdaşlığın genişlənməsinə kömək edəcək: "Biz Caspian European Club-un fəaliyyətini və Klubun keçirdiyi tədbirləri yüksək qiymətləndiririk. Əminik ki, Caspian Energy Georgia Azərbaycan və Gürcüstanın biznes dairələrini yeni səviyyəyə çıxara biləcək".

Telman Əliyev əlavə edib: "CEO Lunch Baku-nun uğurlu təşkili, həmçinin Gürcüstan ərazisindəki partnyorlarımızın və biznesmenlərin çoxsaylı müraciəti CEO Lunch Tbilisi tədbirinin keçirilməsinə təkan verdi".

İlk CEO Lunch Tbilisi 2017-ci il sentyabrın 29-da təşkil olunacaq və hər ayın sonuncu cümə günü keçiriləcək. Növbəti CEO Lunch Tbilisi oktyabrın 27-də və noyabrın 24-də baş tutacaq. Aparıcı "networking" alətlərindən olan CEO Lunch şirkət rəhbərlərinin və dövlət qurumlarının nümayəndələrinin qeyri-rəsmi şəraitdə ünsiyyəti üçün imkanların yaradılması və yeni əlaqələrin qurulması məqsədilə keçirilir.

İştirak üçün qeydiyyat: http//www.caspianenergy.org/index.php/ceo-lunch

PASHA Bank Azərbaycan, Gürcüstan və Türkiyədə fəaliyyət göstərən regional maliyyə institutudur. PASHA Bank iri və orta sahibkarlıq üçün bütün əsas korporativ və investisiya bankinq xidmətləri göstərir. Müştərilərə böyük diqqət göstərən PASHA Bank Georgia korporativ bank xidməti üzrə ixtisaslaşıb. PASHA Bank həm müştəqil, həm də iri bank sindikatları çərçivəsində hər bir müştərinin tələblərini və imkanlarını nəzərə alaraq, sürətli xidmət, rəqabətli faizli yatırımlar və fərdi bank xidmətləri göstərir.

# Azərbaycana 500 milyon dollar kredit ayrılması üzrə daha bir mərhələ geridə qaldı

Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi üçün Azərbaycana 500 milyon dollar kredit ayrılması üzrə layihənin yekun icmalını başa çatdırıb. Layihənin yekun icmalının oktyabrın 18-də bankın idarə heyəti tərəfindən təsdiq olunması gözlənilir.

Bu vəsait "Cənub Qaz Dəhlizi"nin ən böyük hissəsini təşkil edən TANAP layihəsində istifadə edilməsi üçün "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinə (CQD) ayrılacaq. Kredit CQD-nin TANAP üzrə öhdəliklərinin bir hissəsinin maliyyələşdirilməsinə yönəldiləcək.

EBRD ilə yanaşı, bir sıra digər beynəlxalq maliyyə institutları da TANAP layihəsini dəstəkləyib. Ümumi dəyəri 8,6 milyard dollar olan TANAP üçün daha əvvəl Dünya Bankı 800 milyon dollar və Asiya İnfrastruktur İnvestisiya Bankı isə 600 milyon dollar maliyyə vəsaiti ayırıb. Avropa İnvestisiya Bankı da TANAP layihəsinin maliyyələşdirilməsini nəzərdən keçirir.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Prezidentinin "Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi"nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 2014-cü il tarixli 25 fevral Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.




Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan "Cənub Qaz Dəhlizi"nin seqmentlərini "Şahdəniz Mərhələ 2", "Cənubi Qafqaz Boru Kəmərinin Genişləndirilməsi", TANAP və "Trans-Adriatik" (TAP) layihələri təşkil edir. Bu boru xətti Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya çatdıracaq. Uzunluğu 3 min 500 kilometr olan "Cənub Qaz Dəhlizi" vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya 10 milyard kubmetr qaz nəqli nəzərdə tutulur. Azərbaycan təbii qazının 2018-ci ilin ortalarında Türkiyəyə, 2020-ci ilədək isə Avropaya çatdırılması planlaşdırılır.

Qeyd edək ki, TANAP üzrə indiyədək Faza-0, yəni 2018-ci ilin iyununda Türkiyəyə ilk təbii qazın verilməsi üçün görüləcək işlər çərçivəsində 1364 kilometr, Faza-1, yəni 2019-cu ilin sonunda Türkiyədən keçməklə Avropaya təbii qazın verilməsi üçün isə 440 uzunluğunda xəndək qazılıb. TANAP-ın tikintisi çərçivəsində ümumilikdə 1804 kilometr uzunluğunda xəndək qazılıb. Faza-0 üzrə 1346 kilometr, Faza-1 çərçivəsində isə 347 boru marşrut xətti boyunca düzülüb. Bundan başqa, Faza-0 çərçivəsində 1342 kilometr, Faza-1 üzrə isə 283 uzunluğunda borunun qaynağı tamamlanıb. Ümumilikdə, TANAP-ın əsas xətti üzrə 1694 kilometr boru marşrut boyunca düzülüb, 1626 kilometr boru qaynaqlanıb. TANAP ilə Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üçün işlərin 87,8 faizi görülüb. 2018-ci il iyun ayının sonuna qədər Faza-0 çərçivəsində işlərin tamamlanması, "Botaş" şirkəti vasitəsilə Türkiyəyə Azərbaycan təbii qazın verilməsi planlaşdırılır. Faza-1 üzrə nəzərdə tutulan işlərin isə 59,6 faizi tamamlanıb. Ümumilikdə, TANAP layihəsi çərçivəsində bütün işlərin təxminən 80 faizi icra olunub.

Kəmərin tikintisində hazırda 9 min 581 işçi sahələrdə çalışır. Əlavə işlər və podratçılar da daxil olmaqla boru kəmərinin inşasına 10 min 357 nəfər cəlb olunub. TANAP-ın Dardanel boğazından keçəcək 36 düymlük 18 kilometr uzunluğundakı dəniz hissəsi üçün qoşa boru kəmərinin tikintisi layihə üzrə qrafikə uyğun davam edir. Asiya və Avropa qitələrində sahilboyu yerləşən tikinti meydançalarının və ofislərin inşası artıq başa çatıb. Həmçinin quruda boru kəməri üzrə marşrut xətti artıq tamamlanıb. Bundan başqa, Asiya və Avropa qitələrində sahilboyu xəndəklər qazılıb, dənizin 8-25 metr dərinliyində kanalın qazılması artıq yekunlaşıb. TANAP-ın quru hissəsinin inşası çərçivəsində 4 ölçmə və 3 kompressor stansiyasının tikintisi qrafikə uyğun davam etdirilir.

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan qazı Türkiyəyə və qardaş ölkədən də Avropaya nəql edəcək TANAP "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan digər layihədir. TANAP Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşəcək. Uzunluğu 1850 kilometr olan TANAP-ın Əskişəhərə qədər olan hissəsinin 2018-ci ilin ortasında istismara verilməsi nəzərdə tutulur. Layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 2020-ci ilədək ümumilikdə 6,2 milyard dollar olacağı nəzərdə tutulur.

Boru kəmərinin Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düym diametrli hissəsinin uzunluğu 1334 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düym diametrli hissəsinin uzunluğu isə 450 kilometrdir. Bundan başqa, TANAP 2x36 düym diametrli 18 kilometr uzunluğunda sualtı hissədən də ibarətdir. TANAP-ın tikintisi üzrə ilk mərhələ sona çatdırılıb və hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Boru kəmərinin ilkin ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir və sonradan bu həcmin 31 milyard kubmetrədək artırılması imkanı var. Layihənin ümumi dəyərinin isə 9,2 milyard dollar olacağı hesablanır. Layihənin ümumi büdcəsi üzrə indiyədək 3,2 milyard dollara qənaət edilib.

TANAP-ın səhmdarlarının bu layihədə payı belədir: "Cənub Qaz Dəhlizi" QSC - 58 faiz, "Botaş" - 30 faiz və BP şirkəti - 12 faiz.

# Koreya Respublikasının nümayəndələri ilə görüş

Vergilər Nazirliyində keçirilmiş görüşdə vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri İlkin Vəliyev Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-qyunun başçılıq etdiyi nümayəndə heyətini salamlayaraq, ölkələrimiz arasında münasibətlərin və ikitərəfli əlaqələrin gündən-günə genişləndiyini qeyd edib, ölkəmizin vergi sistemi, iqtisadi sahədə, o cümlədən vergi orqanlarında həyata keçirilən islahatlar barədə qonaqlara ətraflı məlumat verib.

Bildirilib ki, Azərbaycan regionun iqtisadi coğrafiyasında mühüm yer tutur, ölkəmizdə xarici investisiyalar üçün əlverişli şərait yaradılıb, investorlar üçün iqtisadiyyatın bir çox sektorlarında vergi güzəştləri müəyyənləşdirilib. Azərbaycan Koreyadan olan daha çox şirkətlərin ölkəmizdə fəaliyyət göstərməsində maraqlıdır.

Koreya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Kim Çanq-qyu ölkələrimiz arasındakı əlaqələrdən məmnunluğunu ifadə edib. Səfir Azərbaycanda gedən sürətli inkişaf proseslərinin dərin təəssürat yaratdığını qeyd edib, Koreya Respublikasının Azərbaycanla ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsində maraqlı olduğunu vurğulayıb.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın sərmayə qoyuluşu, yüksək texnologiyalar, sənaye, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb, Vergilər Nazirliyi ilə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİCA) çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Görüşdə KOİCA-nın Azərbaycan ofisinin direktoru Choi Yeon Jae də iştirak edib.

# «Yaşıl dəhliz» sınaqdan uğurla çıxır

Ötən ilin avqust ayından Azərbaycan iqtisadiyyatında tətbiq olunan «Malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün «Yaşıl dəhliz» sistemi qeyri-neft ixracının artmasında və tranzit imkanlarının yaxşılaşmasında mühüm rol oynayıb. İqtisadiyyat naziri Şahin Mustafayev bildirib ki, artıq bir ildir tətbiq olunan «Yaşıl dəhliz» ixrac-idxal əməliyyatları zamanı elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsində şəffaflığın təmin edilməsi baxımından özünü doğruldub. «Yaşıl dəhliz» sisteminin tətbiqi gömrük rəsmiləşdirilməsinin daha çevik və şəffaf həyata keçirilməsinə, məmur-sahibkar münasibətlərinin müasir idarəçilik prinsipləri əsasında inkişafına imkan verməklə qeyri-neft ixracının artmasına, xarici ticarətin coğrafiyasının genişlənməsinə, Azərbaycan məhsullarının yeni bazarlara çıxarılmasına imkanlar yaradır.

«Açıq hökumət» prinsiplərinə uyğun olan «Yaşıl dəhliz» sistemi məmur-sahibkar münasibətlərini rəqəmsallaşdırır.

Qarşıda duran ümdə vəzifələrdən biri ixracın həm məhsulların çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsidir. Bu baxımdan, ixracın və yükdaşımaların artmasına təsir göstərən mühüm amillərdən biri kimi Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının rolu da müsbət dəyərləndirilir. Şura tərəfindən ölkəmizin ərazisindən keçən tranzit dəhlizlərinin rəqabət qabiliyyətinin və səmərəliliyinin artırılması, yükdaşımaların keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlər həyata keçirilir. Şura tranzit yüklərin daşınması sahəsində vahid, çevik və şəffaf tarif siyasətinin həyata keçirilməsi, sərhədkeçmə prosedurlarının və daşıma proseslərinin asanlaşdırılması, habelə bu sahədə fəaliyyət göstərən dövlət qurumları arasında əlaqələndirmə işlərinin təmin edilməsi üçün sahibkarlıq fəaliyyətinə əlverişli şərait yaradır. Son bir ildə şura tərəfindən iri tonnajlı yük avtomobillərinin keçid prosedurları sadələşdirilib, gediş-gəliş xərcləri 40%-dən aşağı salınıb. Bunun nəticəsində 2017-ci ilin yanvar-iyul aylarında ölkəmizin ərazisindən 16 mindən artıq yük avtomobili keçib ki, bu da ötən ilin analoji dövrü ilə müqayisədə 1,5 dəfə çoxdur. Yük daşınmaları və ixracın stimullaşdırılması və təşviqi ilə əlaqədar görülən işlər Azərbaycan ərazisinin tranzit məkanı kimi cəlbediciliyini artırır.

Bu sahədə görülmüş işlər nəticəsində 2017-ci ilin ötən 7 ayı ərzində ölkə ərazisindən təxminən 6 milyon ton tranzit yükü daşınıb. Yüklərin 1,2 milyon tonu (22%) qeyri-neft məhsullarının payına düşür. Son bir ildə həm ölkəmizə məxsus, həm də xarici dövlətlərə aid qeyri-neft məhsullarının ixracı çoxalmaqdadır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının ixracında 36% artım olub.

# «Stressin idarə edilməsi» mövzusunda təlim




Vergilər Nazirliyinin Tədris Mərkəzində dövlət vergi orqanlarının rəhbər vəzifəli şəxsləri üçün «Stressin idarə edilməsi» mövzusunda təlim təşkil edilib.

Tədbirdə Vergilər Nazirliyi yanında Milli Gəlirlər, Bakı şəhəri Lokal Gəlirlər, Kiçik Sahibkarlıqla İş və Vergi Cinayətlərinin İbtidai Araşdırılması departamentlərinin, Çağrı Mərkəzinin, Tədris Mərkəzinin və ərazi vergi idarələrinin rəhbər vəzifəli şəxsləri iştirak ediblər.

Azərbaycanın tanınmış psixoloqu Həlimə Qəmərlinskayanın keçdiyi təlim zamanı qeyd edilib ki, müasir dövrün ən geniş yayılmış problemlərindən biri də iş zamanı yaranan streslərin, psixoloji gərginliklərin idarə edilməsidir. Dinləyicilərə stress anlayışı, onun yaranma səbəbləri barədə ətraflı məlumat verilib, psixoloji amillərin təsiri izah olunub. Təlim iştirakçılarına stress təzahürlərinin emosional, intellektual, davranışla bağlı və fizioloji simptomları, eləcə də stressin qarşısının alınması və ya təsirinin azaldılması yolları barədə məlumat verilib.

# “AtaTravel” bayramla bağlı sərfəli və əyləncəli turpaketlər təklif edir

*“AtaHolding” Şirkətlər Qrupunun turizm sektorunda “AtaTravel” MMC, “AtaTurizm” və “Excelsior Hotel & Spa Baku” oteli fəaliyyət göstərir. 2011-ci ildə təsis edilmiş “AtaTravel” turizm agentliyi dünyanın istənilən yerinə səyahət xidmətləri təklif edir. Şirkət öz müştərilərini mehmanxana, uçuşlar, köçürmələr, əvvəlcədən sifariş, sığorta, viza ilə əlaqədar xidmətlərlə təmin edir. Son dövrlərdə turizm sektorunda baş verən yeniliklər və digər aktual məsələlərlə bağlı olaraq suallarımızı “AtaTravel”in turoperatoru Rəvan Əhmədov cavablandırır.*



**- Rəvan müəllim, şirkətiniz daim yeniliklərlə müştərilərinin marağına səbəb olur. Bu baxımdan yeni aksiyalarınızla bağlı nələri bildirərdiniz?**

- Ümumiyyətlə, turizm sahəsi dinamik və daim inkişafda olduğu üçün biz də daim üzərimizdə işləyirik, müştərilərimizin istək və təkliflərini nəzərə alırıq, onlara ən sərfəli turpaketlər təqdim edirik. Həmçinin, yeni istiqamətlər üzrə turpaketlərin hazırlanmasına çalışırıq. “AtaTravel” şirkəti daim beynəlxalq sərgilərdə iştirak edir, info-turlar və sair maraqlı tədbirlər, eləcə də aksiyalar keçirir. Ofisimiz şəhərin mərkəzində, çox rahat və müştərilərimiz üçün əlçatan yerdə yerləşir. Yeni aksiyalarımızla bağlı onu deyə bilərəm ki, qarşıdan Qurban bayramı gəlir. “AtaTravel” olaraq müştərilərimizin bu barədə istəklərini nəzərə almışıq. Bunun üçün xüsusi olaraq bir neçə istiqamət üzrə sərfəli və əyləncəli turpaketlər hazırlamışıq. Bu turlar bayram günlərində 2 gecə, 3 gün qalmaqla keçiriləcək. Turlar sentyabrn 1-dən 3-ə, yaxud 2-dən 4-ə qədər nəzərdə tutulub. Qax-Zaqatala-Balakən-Siqnaxi və Lapota gölünə olan turları misal çəkim. Burada 2 gecə gecələmək mümkündür. Gecələmə Balakəndəki 4 ulduzlu, hər bir şəraiti olan Qubek otelində olacaq. Tur boyu bələdçi, videoçəkiliş, əyləncəli oyunlar, Qaxa, İlisu şəlaləsinə, Balakənə və digər gəzməli yerlərə ekskursiyalar təmin ediləcək. Tur boyu 2 gecə, 3 gün oteldə qalmaq və səhər yeməyi turun qiymətinə daxildir. Turun qiyməti hər bir adam üçün ikinəfərlik nömrədə 129 manatdan başlayır. 6 yaşadək uşaqlar üçün isə ödənişsizdir. Onu da əlavə edim ki, tur çox komfortlu “Mersedes” markalı avtobuslarla təşkil ediləcək. Tur iştirakçılarının bütün rahatlıqları və istəkləri nəzərə alınıb. Digər bir turumuz hazırda çox məşhur olan Mingəçevir-Gəncə-Göygöl turudur. Bu tur da sentyabrın 1-dən 3-ə qədər keçiriləcək. İştirakçılar Mingəçevirdə Kür çayının sahilindəki 5 ulduzlu, yüksək standartlara cavab verən “Ağsaray Deluxe” otelində qalacaqlar. Burada da komfortlu nəqliyyat, ekskursiyalar, bələdçi, oteldə səhər yeməyi daxil, 3 gün 2 gecə qalmaq təmin edilib. Kür çayında gəzinti, Mingəçevir su anbarına ekskursiya, Gəncədə Nizami türbəsini ziyarət, Xan bağına, Göygölə və digər yerlərə ekskursiya da bura daxildir. Bu turun qiyməti bir nəfərin 3 dəfə qidalanması və bütün sadalanan xidmətlər və ekskursiyalardan faydalanması ilə 125 manatdır. 3-cü turumuz isə Şabranda yerləşən Qalaaltı otelində 2 gecə, 3 gün qalmaqla ayın 2-dən 4-dək keçiriləcək. Burada SPA, fitnes, əyləncələrdən istifadə, bayram konsertində iştirak təmin edilir. Tur çərçivəsində reper Miri Yusifin iştirakı ilə maraqlı şou-proqramı hazırlanıb. Bütün bunlar daxil olmaqla 2 nəfərlik paketin dəyəri 599 manatdır.

**- Yay mövsümü bitməkdədir. Belə bir şəraitdə turistlər daha çox hansı istiqamətlərə meyil edirlər?**

- Qarşıdan “məxməri mövsüm” gəlir. Bir azdan artıq turpaketlərin qiymətində enmə müşahidə olunmağa başlayacaq. Məsələn, avqust ayında Türkiyədə iki nəfərlik tam paketin qiyməti ən qənaətcil otellərdə 1100-1300 dollardan başlayırsa, sentyabr ayının 5-10-dan sonrakı tarixlərdə qiymətlərdə nisbətən enmələr müşahidə olunur və 950-1050 dollara turpaket almaq olur. Sentyabrın sonlarına yaxın isə 800-900 dollara 5 ulduzlu otellərdə qalmaqla paket almaq olur. Bu qiymətə həmin müddətdə iki nəfərlik paket almaqla turistlərimiz bir həftə Antalyada dincələ biləcəklər. Bununla bağlı indidən bizə müraciət edib rezervasiya edə bilərlər.

**- Hazırda “AtaTravel” MMC-də hansı aksiyalar var?**

- “AtaTravel” daim müştərilərin istəyini nəzərə alır, onlar üçün yeni-yeni cəlbedici kampaniyalar keçirir. Xanım müştərilərimiz üçün də bu baxımdan cəlbedici aksiyalar keçiririk. Xanım müştərilərin istəyini nəzərə alaraq “Paris Gallery” mağazalar şəbəkəsi ilə 21 avqust tarixindən aksiyaya start vermişik. “AtaTravel” MMC-dən istənilən turpaket, aviabilet alan, məhsul alan xanımlara “Paris Gallery” mağazalar şəbəkəsindən 3 kupon təklif edirik. Bu kuponlardan biri mağazadan istənilən alışa 25 faiz endirim, digəri bir dəfə üzəbaxım seansına endirim, digər kupon isə ödənişsiz “make up”dır.

**- “AtaTravel” jurnalistlər üçün keçirdiyi maraqlı və yaddaqalan info-turları ilə də tanınır. Məsələn, 2013-cü ildə Macarıstana, daha sonra Krıma, həmçinin ölkə daxilində keçirilən info-turları, yeni açılan otellərə təşkil edilən səfərləri buna misal çəkmək olar. Bu il bu cür info-turların keçirilməsi nəzərdə tutulurmu?**

- Planlarımızda bu cür info-turların keçirilməsi var. İlin sonuna yaxın bu barədə info-turlar və onların marşrutu dəqiqləşdiriləcək. Bundan sonra bu barədə jurnalistlərə və turizm şirkətlərinin nümayəndələrinə məlumat veriləcək. Hazırda turizmin pik çağı olduğu üçün otellərdə boş yer tapmaq çətindir. Ona görə də indiki vaxtda info-turlar təşkil etmək əlverişli deyil. Buna nəzərə alaraq info-turların daha mütəşəkkil və yaxşı keçirilməsi üçün uyğun vaxtlar müəyyənləşdiririk. Bu baxımdan otellərlə danışıqlar aparırıq.

**- Azərbaycanlı turistlər daha çox hansı ölkələrdə dincəlməyə üstünlük verirlər?**

- İndiki vaxtda azərbaycanlı turistlərimiz daha çox vizasız rejimləri olan ölkələrdə dincəlməyə üstünlük verirlər. İndi turizm mövsümü olduğuna görə bəzi ölkələr Azərbaycanla viza rejimini ləğv ediblər. Məsələn, Montoneqro ilə hazırda vizasız rejimdəyik. Yəni, yay vaxtı Azərbaycan vətəndaşları orada tək pasportla gedib istirahət edə bilərlər, heç bir vizaya ehtiyac yoxdur.

**- Daha hansı ölkələrə bu baxımdan vizasız getmək mümkündür?**

- Qətər, Türkiyə, Gürcüstan, Rusiya, Ukrayna, Qazaxıstan, Belarus kimi ölkələrə vizasız getmək mümkündür.

Müsahibəyə görə təşəkkür edirəm

**Dilara Zamanova,**
**“AtaHolding” Korporativ Kommunikasiyalar şöbəsinin rəisi**




# “Bank of Baku”dan “Bolkart”lılara 100 faiz nağdlaşdırma kampaniyası

"Bank of Baku" Qurban bayramı ərəfəsində “Bolkart” kredit kart müştərilərinin ürəyindən xəbər verəcək yeni 100 faiz nağdlaşdırma kampaniyasına start verib.

Kampaniya şərtlərinə əsasən, kart sahibi balansındakı məbləğin hamısını, yəni tam 100 faizini nağdlaşdırma imkanına malik olacaq.

Nağdlaşdırma üçün yeni “Bolkart” kredit kartlarında 1 faiz, köhnə “Bolkart” kartlarında isə 4 faiz komissiya nəzərdə tutulub. Məsələn, köhnə “Bolkart” kredit kart sahibi 1000 AZN nağdlaşdırma etsə və noyabrın 10-na qədər onu geri qaytarsa, əlavə heç bir faiz ödəməyəcək. Sadəcə 4 faiz nağdlaşdırma komissiyası nəzərə alınmaqla ümumilikdə 1040 AZN ödəniş edəcək.

Yeni Bolkart kredit kartları ilə 1000 AZN nağdlaşdırma etdikdə, geri ödəniləcək əsas borc məbləği 1 faiz nağdlaşdırma komissiyası ilə birlikdə 1010 AZN təşkil edəcək. Sentyabrın 3-dək davam edəcək kampaniyadan bankın yalnız müsbət kredit tarixçəli müştəriləri faydalana biləcəklər.

"Bank of Baku"nun “Bolkart”lılara özəl elan etdiyi nağdlaşdırma kampaniyası haqqında daha ətraflı məlumatla bankın və “Bolkart”ın “facebook” səhifələrinə müraciət etməklə, həmçinin 145 Məlumat Mərkəzinə zəng edərək tanış olmaq mümkündür.

# “Kapital Bank” ilə “Birlik”də olaq

"Kapital Bank" sadiq müştəriləri üçün "Birlik Klubu" layihəsini təqdim edib.

Bankdan bildiriblər ki, artıq "Kapital Bank"ın kredit müştəriləri "Birlik Klubu"na qoşulmaqla bir sıra güzəştlərdən yararlanmaq imkanı əldə edirlər. Kluba üzv olan müştərilərə xüsusi üzvlük kartları təqdim edilir. Kartın növündən asılı olaraq müştərilərin aylıq kredit ödənişlərindən müəyyən məbləği bonus şəklində karta geri qaytarılır. Kredit komissiyasına endirim, illik faiz dərəcəsinə güzəşt tətbiq olunur. Həmçinin kreditin ödəniş vaxtına 6 ayadək əlavə müddət əldə etmək mümkündür. Klub üzvlərinin qazanacağı imtiyazlar bununla yekunlaşmayacaq, banka aid digər faydalı təkliflər də təqdim olunacaq.

"Birlik klubu"na qoşulmaq üçün "Kapital Bank"ın istənilən filialına yaxınlaşmaq kifayətdir. Ətraflı məlumat üçün: kapitalbank.az/loans/birlik-klubu




Azərbaycanda ən böyük filial şəbəkəsinə malik olan "Kapital Bank" 92 filialı və 7 şöbəsi ilə müştərilərin xidmətindədir. Bankın məhsul və xidmətləri barədə daha ətraflı məlumat almaq üçün www.kapitalbank.az saytına, 196 Sorğu Mərkəzinə və ya bankın müxtəlif sosial şəbəkələrdə olan səhifələrinə müraciət edə bilərsiniz.



# Международный аэропорт Гейдар Алиев переходит на новые технологические решения в связи с увеличением пассажиропотока

Международный аэропорт Гейдар Алиев переходит на новые технологические решения в связи с увеличением пассажиропотока.

29 августа в Баку был подписан соответствующий документ между Международным аэропортом Гейдар Алиев и компанией Amadeus. Документ подписали первый вице-президент SilkWay group Теймур Мамедов и старший вице-президент по новым бизнес-проектам компании Amadeus Франциско Перез-Лозао.

Пассажиропоток главной воздушной гавани Азербайджана – Международного аэропорта Гейдар Алиев продолжает стабильно увеличиваться с каждым годом. Только за первые семь месяцев текущего года аэропорт обслужил на 30 процентов больше пассажиров, чем за аналогичный период 2016 года. Таким образом, аэропорт достигает своей главной цели – стать в ближайшее время одним из основных хабов в регионе. В целях беспрепятственно масштабировать свою деятельность и гарантировать бесперебойное обслуживание пассажиров, Международный Аэропорт Гейдар Алиев совместно с компанией Amadeus представил первое полностью автоматизированное решение, основанное на облачной системе управления аэропортом.



Среди услуг, представленных в рамках данного облачного решения – система управления багажом, операционная база данных аэропорта, система по отображению информации о полетах и многие другие.

Соответствующая договоренность была достигнута между президентом ЗАО «Азербайджан Хава Йоллары» Джахангиром Аскеровым и старшим вице-президентом по новым бизнес-проектам компании Amadeus Франциско Перез-Лозао.

Международный аэропорт Гейдар Алиев владеет двумя пассажирскими терминалами и рассчитан на ежегодное обслуживание 9 миллионов пассажиров. Новый аэровокзальный комплекс аэропорта (Терминал 1), построенный по всем современным авиационным и технологическим требованиям, был сдан в эксплуатацию в апреле 2014 года. Его общая площадь составляет 65 тысяч квадратных метров.

Международному аэропорту Гейдар Алиев была присвоена престижная категория «4 Звезды» от Skytrax, являющейся влиятельной британской консалтинговой компанией, специализирующейся на изучении качества предоставляемых услуг различными авиакомпаниями и аэропортами во всем мире.

В марте текущего года бакинский аэропорт также возглавил список самых лучших по уровню предоставляемых услуг среди всех аэропортов России и стран СНГ по версии Skytrax World Airport Awards.

# «Metro»: Азербайджан влюбляет в себя с первого взгляда

«Азербайджан удивит туристов своим многообразием» - так называется статья Анны Храмцовой, которая вышла сегодня в российской газете «Metro».

* * *

Чтобы насладиться горными пейзажами, отведать восточных сладостей, своими глазами увидеть чудеса современной архитектуры и искупаться в море, не обязательно лететь в Швейцарию, Марокко, ОАЭ или Таиланд. Всё это вы найдёте в солнечном Азербайджане, который влюбляет в себя с первого взгляда, пишет журналист. Добраться в столицу страны из Москвы можно как на самолёте, так и на автобусе. Лично я воспользовалась первым вариантом и спустя три часа после вылета приземлилась в аэропорту города Баку, сделанном по последнему слову техники.




**Старый город Баку**

Моя прогулка по району Ичеришехер (Старый город) началась с посещения символа города – Девичьей башни, древнего сооружения, точный возраст которого пока так и не удалось определить. Археологи считают, что строительство башни происходило в два этапа: первый относится к доисламской эпохе, а второй – к XII веку. В разные времена для неё находили различное применение: в XII веке она являлась оборонительной крепостью, в XVIII-XIX веках здесь был маяк, а сегодня внутри Девичей башни находится современный интерактивный музей и смотровая площадка с прекрасным видом на город.

По следам «Бриллиантовой руки»

Побродить по старому городу – это особое удовольствие. Архитектура домов, каждый из которых уникален, просто завораживает. А какие здесь витают запахи! Рекомендую вам попробовать азербайджанский чай из традиционных бокалов и медовую пахлаву. К примеру, это можно сделать в кафе «Бриллиантовая рука», которая находится на том месте, где более полувека назад герой Юрия Никулина Семён Горбунков из одноимённого фильма Гайдая упал, а очнулся уже с гипсом. Это место стало настоящей меккой для русских туристов – люди приходят сюда сделать фото и громко сказать заветное: «Чёрт побери!».

**Современный Баку**

Старинные здания в Баку прекрасно уживаются с современными постройками: фешенебельные отели европейского уровня, торговые и бизнес центры. Из любой точки города можно увидеть "Пламенные башни" – три высотных здания, включающие в себя офисы, гостиницы и квартины. Они напоминают три языка пламени. А ещё в Баку есть настоящий шедевр современной архитектуры – культурный центр Гейдара Алиева, созданный по проекту легендарного архитектора Захи Хадид. Внешне здание напоминает то ли огромного кита, то ли бабочку. Как бы я не старалась, заснять его целиком так и не получилось.

**Отдых на море**

И всё же одна из главных достопримечательностей Баку – Каспийское море. Для меня стало открытием, насколько оно чистое и мягкое. В центре города нет оборудованных пляжей, поэтому, чтобы искупаться и позагорать, можно отправиться в курортный посёлок Sea Breeze Resort. Недалеко от него, в заповеднике Янардаг, находится одна из самых удивительных достопримечательностей Абшеронского полуострова. Это охваченный пламенем склон горы, который невозможно потушить ни дождём, ни снегом. Необычный пейзаж на самом деле объясняется просто: из верхних слоёв почвы выделяется природный газ, при соприкосновении с кислородом превращающийся в пламя.

**Габала**

Я советую приезжать в Азербайджан как минимум на десять дней, ведь посмотреть столицу – это ещё не значит увидеть всю страну. В 200 километрах от Баку расположился город Габала – его часто называют «азербайджанской Швейцарией». В тёплое время года здесь можно посетить водопад "Семь красавиц", заняться рафтингом или совершить пешее путешествие в горы, а зимой – отдохнуть на оборудованном канатными дорогами горном курорте. И, когда бы вы не приехали, не упустите возможности попробовать местные деликатесы: различные виды шашлыка, долму, азербайджанский плов, кутабы, вино и многое другое.

# В центре «Applab» был проведен интенсивный тренинг на тему составления бизнес-планов

Первый оператор мобильной связи и ведущий провайдер мобильного интернета в Азербайджане – компания Bakcell начала проведение обучающих семинаров, направленные на поддержание устойчивого развития участников программы Applab.

При выборе тем для данных семинаров, были приняты во внимание все основные нужды и требования команд, работающих над своими проектами в инкубационном центре компании. Первый тренинг, под названием «Составление бизнес планов», был посвящен роли правильно составленного бизнес плана в успешности стартапа. Также, в ходе тренинга были рассмотрены основные моменты, касающиеся структуры, составления, применения и процесса оценки бизнес плана. В конце семинара, участники "Applab" получили возможность составить первые бизнес планы для проектов, над которыми они работают.

«Благодаря этому первому тренингу, я получил ценную информацию о различных способах продажи продуктов, а также установлении взаимоотношений с инвесторами. Более того, мне удалось сделать интересные и полезные заметки, о том как составлять бизнес планы, и как бизнес план может быть полезен для любого стартапа» - говорит Садых Гусейнов, создатель приложения BuilDay.

В дальнейшем, члены 7 команд, работающих над своими проектами в инкубационном центре компании, смогут значительно улучшить уровень своих навыков и знаний, посетив тренинги посвященные следующим темам:

1. Мастер-класс по «Питчингу»
2. Интенсивный курс по ознакомлению с «Блок-чейнами»
3. Интенсивный курс по развитию связей с инвесторами
4. Интенсивный курс по составлению бизнес-планов
5. Тренинг «Основы управления проектами»

Каждый обучающий семинар состоит из теоретической части и ситуационного исследования (case study). В целом, программа включает в себя 25 часов обучения. За время этой трехмесячной программы, команды поддерживаемые проектом "Applab" получат знания и навыки, необходимые для правильного написания бизнес планов, управления проектами, выступления перед инвесторами и создания взаимоотношений с инвесторами.



Данные тренинги, организуются совместно с "Тренинг-центром CAC", являющимся одним из ведущих центров страны, по предоставлению таких услуг как тренинги, аттестация и консалтинг.

Программа "AppLab" это ускоренная модель осуществления проектов, созданная для оказания поддержки выбранным для участия разработчикам, в воплощении в жизнь их идей, мобильных приложений и технологий, от начальной стадии до стадии готового продукта на региональном уровне.

# Azercell сохраняет за собой лидерство

Azercell Telecom - лидирующий мобильный оператор на рынке коммуникаций - благодаря своему качественному обслуживанию, продолжает оправдывать доверие своей семьи в 4,5 миллионов абонентов. Неслучайно, что во втором квартале 2017 года представители Абонентского Обслуживания Azercell ответили на 100% заданных пользователями вопросов на своей официальной странице Facebook.

За оперативное реагирование на большой поток обращений, адресованных абонентами в течение дня, компания Azercell вновь была удостоена сертификата "Socially devoted" (Социально приверженный).

В регионе впервые именно компания Azercell запустила Службу поддержки клиентов на своей Facebook странице, а далее распространила ее и на другие социальные сети. В результате ежедневной работы с пользователями в социальных сетях, абоненты находят ответ на интересующие их вопросы, решают возникшие проблемы, осуществляет определенные операции без лишней затраты времени.

С показателем 81% за второй квартал 2017 года компания опередила всех своих конкурентов, являясь единственным обладателем сертификата в секторе за указанный период. Еще в 2012 году впервые Azercell среди местных компаний получила официальный статус "verified" (одобрено) в сети Twitter. В настоящее время в сети Twitter у Azercell свыше 110 000 подписчиков, чем вновь опережает другие компании и мобильных операторов в Азербайджане.

Для получения более подробной информации вы можете обратиться по электронному адресу news@mcs.az.

ООО Azercell, лидер в области мобильно-коммуникационной индустрии Азербайджана и самый крупный капиталист ненефтяного сектора, было учреждено в 1996 году. Сеть Azercell, доля которой составляет 48% на рынке мобильной коммуникации Азербайджана, охватывает 80% территории, и 99,8% населения страны. На сегодняшний день 4,5 млн. людей выбирает услуги Azercell.

Ряд инновационных технологий и концепций впервые были введены в Азербайджане компанией Azercell: технология GSM, система предварительного платежа, Телефонный Центр 24/7, онлайн-обслуживание клиентов, GPRS/EDGE, M2M, Мобильный Банк, офисы Azercell Ekspres, оказывающие 3 услуги в 1 пункте, мобильная электронная услуга "Asan İmza" и т.д. В 2012 году компания Azercell представила в стране первую услугу LTE 4-ого поколения. По результатам компании Global Wireless Solutions, проводящей исследование качества мобильной сети, а также согласно результатам международных систем, таких как "Opensignal" и "Testmy.net", занимающихся измерением сетевого качества радиосигналов, сети Azercell по многим параметрам продемонстрировали наивысшие показатели среди мобильных операторов Азербайджана.

# "Paris Gallery" mağazasına jurnalistlər üçün info-tur keçirildi



28 avqust 2017-ci il tarixində Bakıda yeni açılmış "Paris Gallery" mağazasına jurnalistlər üçün info-tur keçirildi. Media nümayəndələri yeni açılmış mağazanın dəbdəbəli və orijinal dizayna malik mərtəbələrində təqdim edilən çoxçeşidli brend məhsullarla əyani tanış oldular.

Mağazanın rəhbəri Rasim Hacıyev media nümayəndələrinə məlumat verdi ki, "Paris Gallery" şəhərin mərkəzində və çox rahat bir yerdə yerləşir. Belə ki, keçmiş Araz kinoteatrının yerində, Nizami küçəsi ilə yanaşı olan İslam Səfərli 3 ünvanında yerləşən mağaza 3 mərtəbədən ibarətdir. Tamamilə yenilənmiş və təmir olunmuş bir binada fəaliyyət göstərən mağazaya yeni dizayn verilib: "Dükanın "- 1" mərtəbəsi ofis, birinci mərtəbə isə parfümeriya, kosmetika və dəriyə qulluq məhsulları, həmçinin gözəllik salonu ilə xidmət göstərir. İkinci mərtəbə brend qol saatları, çantalar, aksessuarlar və gün eynəklərinin satıldığı yerdir. 3-cü mərtəbə isə digər mərtəbələrdən tam fərqli və dizaynı ilə seçilən mərtəbədir. Ümumi sahəsi 1500 kvadratmetrdən artıq olan mağaza təqdim etdiyi məhsulların çeşidliliyi və keyfiyyəti, orijinallığı ilə Bakıda fərqli bir statusa malikdir".

Mağaza rəhbəri bildirdi ki, buradan mal alan müştərilər çox keçməmiş ikinci və üçüncü dəfə mağazaya qayıdırlar. "Paris Gallery"nin daha bir üstün keyfiyyəti ondadır ki, burada hər bir müştəriyə individual yanaşılır, yüksək xidmət göstərilir, onların bütün istək və sorğuları qayğıkeşliklə cavablandırılır.

Qeyd edildi ki, Bakıda yerləşən "Paris Gallery" mağazası, mərkəzi Dubayda yerləşən "Paris Gallery" şirkətlər qrupunun bir filialıdır: "Bu da bizə imkan verir ki, şirkətlər qrupunun istehsalı olan brend malları birbaşa, vasitəsiz olaraq mərkəzdən alaq. Bakıda yerləşən mağaza isə "Paris Gallery"nin ümumilikdə sayca 85-ci mağazasıdır. Şirkətlər qrupunun digər mağazaları Yaxın Şərq ölkələrində yerləşir. Bakıda yerləşən mağaza isə şirkətlər qrupunun Avropadakı ilk satış mərkəzi sayılır.

Mağazada müxtəlif parfüm seriyaları təqdim edilir ki, bunlardan biri də 8 eksklüziv, yəni sözügedən "Paris Gallery" mağazasından başqa heç bir yerdə satılmayan brendləri təqdim edən seriyadır.

Mağazanın satış direktoru, Dubaydan gəlmiş, ərəb əsilli Həsən Kaddura bildirdi ki, "Paris Gallery" 1992-ci ildə Dubayda yaradılıb: "Paris Gallery" Yaxın Şərq və Cənubi Afrikada ilk lüks mağazalar şəbəkəsidir. Mağazaların dünyadakı ümumi sahəsi 1 milyon kvadratmetrdən çoxdur. "Paris Gallery" öz müştərilərinə 650-dən çox beynəlxalq ticarət markalarının böyük assortimentini təqdim edir. Şirkətlər qrupunun 75 fərqli millətdən olan 4 mindən artıq işçisi var. Şəbəkə BƏƏ, Səudiyyə Ərəbistanı, Qətər və Bəhreyn, İraq, Omandan başqa, Azərbaycanda da fəaliyyətə başlayıb. Mağazada hələ ki, 14 eksklüziv brendin təqdimatı nəzərdə tutulub. Gələcəkdə Bakıda daha belə bir mağazanın açılması planlaşdırılır. Növbəti belə bir mağazanın Bakıda tikilməkdə olan alış-veriş mərkəzində açılacağı gözlənilir. Məqsədimiz dünyada lüks brendlərin pərakəndə satıcısı kimi öncül olmaqdır".



Qeyd edək ki, mağazada "Giorgio Armani", "Tom Ford", "Burberry", "Guerlain", "Creed" kimi brendlərin ətirlərinin geniş seçimi təqdim olunub. Bakıda ilk dəfə təqdim olunmuş "Amorino", "Cupid", "Music de Parfum"," Blend oud", "Nasamat", "Mood", "Perfume Treasure" kimi eksklüziv və digər brendləri burada tapmaq mümkündür. Qeyri-adi və möhtəşəm ətirlər parfümeriya pərəstişkarları üçün böyük fürsət vəd edir. Həmçinin, "Clinique", "Estee Lauder", "Lancome", "Sisley", "Yves Saint Laurent" və "Elemis" kimi aparıcı brendlərin klassik elit kosmetikasının təqdimatı da ayrıca cəlbedicidir. Moda həvəskarları Paris Gallery mağazasının ən yaxşı dünya brendlərindən ən son mövsümi kolleksiyalarının dəbli aksessuarlarını və zərif saatlarını təqdim etdiyini bilməyə çox şad olacaqlar.

# Azərbaycan işgüzar turizm bazarının liderləri siyahısındadır



Rusiyanın "Aeroklub" şirkətlər qrupu işgüzar turizm bazarının liderlərini müəyyən edib.

Mədəniyyət və Turizm Nazirliyinə istinadən məlumat verilir ki, Azərbaycan rusiyalıların yaxın xarici ölkələr arasında biznes məqsədilə ən çox səfər etdiyi 5 ölkə siyahısına daxil edilib. Tədqiqatın nəticələrinə görə, 2017-ci ildə rusiyalılar biznes səfərləri üçün Qazaxıstan, Özbəkistan, Gürcüstan, Belarus və Azərbaycanı seçiblər. Son bir neçə il ərzində Gürcüstan ilk dəfə olaraq lider üçlüyə daxil olub. Rusiyadan bu ölkəyə biznes-uçuşların sayı 2,5 dəfə artıb.

Ukrayna siyahıda 6-cı mövqeyə enib. İki ölkə arasında birbaşa aviauçuşlar ləğv edildiyindən Rusiya iş adamlarının 70 faizi Belarus, 17 faizi Azərbaycan və 4 faizi Latviyadan tranzit yolla Ukraynaya gedir. Qeyd edək ki, "Aeroklub" şirkətlər qrupu korporativ müştərilər üçün işgüzar səfərlər və tədbirlər təşkil edir. Şirkətin Moskva, Sankt-Peterburq və Vladivostokda ofisləri var.







Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: 566 09 60
Faks: 514 14 27
Mühasibatlıq: 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500